# Nəsimi ədəbi-bədii gecəsi keçirildi



**Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi münasibətilə ölkə başçısı İlham Əliyevin 2019-cu il 11 yanvar tarixli sərəncamı ilə bu il ölkəmizdə "Nəsimi ili" elan edilib.**

Ümummilli liderin təşəbbüsü ilə ilk dəfə Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirləri siyahısına daxil edilmişdir. Milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsi olan Nəsimi yaradıcılığının daha əhatəli araşdırılması istiqamətində bu gün bir çox mühüm işlər görülür. Prezident İlham Əliyevin 2019-cu ili "Nəsimi ili" elan etməsi bunun bariz nümunəsidir. Nəsiminin anadan olmasının 650 illik yubileyinin dövlət səviyyəsində təşkil edilməsi məqsədilə "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" ölkə başçısının müvafiq sərəncamı ilə Nazirlər Kabinetinə müvafiq tədbirlər planının həyata keçirilməsi çərçivəsində bütün sahələrdə olduğu kimi, ümumtəhsil müəssisələrində mütəmadi olaraq silsilə tədbirlər keçirilir. Belə tədbirlərdən biri də C.Cabbarlı adına 187 saylı tam orta məktəbdə keçirildi. Məktəbin VIII sinif şagirdlərinin hazırladıqları "Nəsimi ədəbi-bədii gecəsi" milli-mənəvi dəyərlərimizin təbliği baxımından xüsusi əhəmiyyətə malikdir. Gənc nəslin qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi yer tutan İmadəddin Nəsimi yaradıcılığına yaxından bələd olması onların mənəvi kamilləşməsində mühüm rol oynayır.

VIII "d" və VIII "e" sinif şagirdlərindən Rəna Abbaslı, Xədicə Səfərova, Günay Sadıqova, Əntiqə Möhbalıyeva, Ərşad Hacılı və s. dünya poeziyasının ən kamil nümunələri sırasında özünəməxsus yer tutan, əsərlərində daim insan əzəmətini, məhəbbətini və şəxsiyyət azadlığını tərənnüm edən şairin şeirlərindən nümunələr söylədilər. Tədbir iştirakçıları, məktəb rəhbərliyi şagirdlərin çıxışlarını alqışlarla qarşılamış, tədbirlə bağlı xoş təəssüratlarını bildirmişlər.

**M.ƏLİYEVA,**
**"Respublika".**

2019.- 17 aprel.-S.5